UOT 94(479.24)

GÜLŞƏN HÜSEYNOVA
Azərbaycan Respublikası Müdafiə Nazirliyi
Hərb Tarixi Muzeyində şöbə rəisi, t.ü.f.d.
yupiter57@mail.ru

GENERAL HÜSEYN XAN NAXÇIVANSKİNİN İCTİMAİ FAƏLİYYƏTİNİN NAXÇIVAN DÖVRÜ

DOI: https://doi.org/10.36719/2708-065X/111/53-59

Məqalədə tam süvari generalı Hüseyn xan Naxçıvanskinin doğma vətəni Naxçıvanın ictimai-siyasi həyatında fəaliyyəti mötəbər mənbələr və elmi ədəbiyyat əsasında hərtərəfli şəkildə əks olunmuşdur. Ömrünün böyük bir hissəsini Vətəndən uzaqda yaşayıb yaradan Hüseyn xanın hərbi və ictimai fəaliyyəti birbaşa Rusiya ilə bağlı olsa da, o, heç vaxt Azərbaycanla, xüsusilə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanla əlaqəni kəsməmiş, bu diyarda mühüm ictimai işlər görmüşdür. Uzun illər imperiya ordusunda xidmət etməsinə baxmayaraq, Hüseyn xan ata-baba yurdu Naxçıvan torpağında yaşayan qohumları ilə daim ünsiyyətdə olmuş, Naxçıvan və İrəvan torpaqlarının gəlmə ermənilər tərəfindən mənimsənilməsinin qarşısını almaq məqsədilə qardaşlarına maddi yardım göstərmiş, həmin torpaqların geri qaytarılması və əldə olunması üçün ciddi təşəbbüslərlə çıxış etmişdir.

Açar sözlər: Naxçıvan, Naxçıvanskilər, Hüseyn xan Naxçıvanski, ictimai fəaliyyət, Qaraçuq torpağı, rus koloniyaları.

Giriş. Ömrünün böyük bir hissəsini Vətəndən kənarda yaşayıb yaradan Hüseyn xanın hərbi və ictimai fəaliyyəti birbaşa Rusiya ilə bağlı olsa da, o hər zaman Azərbaycan və onun tərkib hissə olan Naxçıvanla əlaqəni kəsməmiş, burada ictimai sahədə böyük işlər görmüşdür.

Hüseyn xan uzun illər imperiya ordusunda xidmət etməsinə baxmayaraq doğulduğu Naxçıvan torpağını heç vaxt yaddan çıxarmır, ata-baba yurdunda yaşayan qohumları ilə daim ünsiyyətdə olur və atasından ona miras kimi qalan mülk qismində torpaqların əkib-becərilməsi, həmçinin Naxçıvanda və İrəvanda əkib-becərilməkdən məhrum olan torpaq sahələrinin gəlmə ermənilər tərəfindən mənimsənilməsinin qarşısını almaq məqsədi ilə qardaşlarına bu torpaqların əldə edilməsi üçün maliyyə vəsaiti ilə yardım göstərmişdir [1, s.18; 6].

Hüseyn xan doğma Naxçıvanda da ictimai fəaliyyət ilə məşğul olmuşdur. Bu baxımdan onun 1912-ci ildə qardaşı Cəfərqulu xanla birlikdə İrəvan quberniyası və Qars vilayətinin Dövlət əmlakı idarəsinə və Qars vilayətinin əkinçilik idarəsinə yazdığı xahişnamələri olduqca maraqlıdır [2].

Rusiyanın Qafqazı işğalından sonra xan və bəy nəslindən olan ailələrin imtiyazları azaldılır, onlardan kəsilərək alınan torpaqlardan öz mənafeləri üçün istifadə edirdilər. Bu torpaq sahələrinin bir qismində rus köçkün qəsəbə və kəndləri yaradılır, digərləri isə Naxçıvana köçürülmüş ermənilərə yaşayış yeri kimi verilirdi. Bütün bunları nəzərə alan polkovnik Hüseyn xan qardaşı Cəfərqulu xanla birlikdə İrəvan quberniyasının Naxçıvan qəzasında meşə idarəsinin torpaqları sayılan, 3713 desyatin 1360 kv sajen sahəsi olan "Qaraçuq" adlanan ərazini əkib-becərmək məqsədi ilə icarəyə götürmək üçün İrəvan quberniyasının əkinçilik və torpaq quruculuğu üzrə rəisi ştabs-kapitan Krivoşienə aşağıdakı formada xahişnamə ünvanlayır:

"Ötən ilin sentyabr ayında çarın Qafqazdakı canişini tərəfindən Dövlət Dumasına Cənubi Qafqazın 5 quberniyasında, o cümlədən, bizim mülkədar hüququnda bir neçə malikanəmiz olan İrəvan quberniyasında kəndlilərin mülkədarlardan asılılıq və müvəqqəti məcburi münasibətlərin ləğv edilməsi barədə qanun layihəsi təqdim olunmuşdur.

Həmin qanun layihəsinə görə mülkədarlar qarşısında ağır mükəlləfiyyətlər daşıyan kəndlilərin vəziyyətinin müəyyən qədər yüngülləşdirilməsi nəzərdə tutulurdu və onlar mülkədar kəndlilərə çevrilməli idi. Mülkədarlara isə kəndlilərin mülkiyyətinə keçən torpaq müqabilində hökumət tərəfindən nəqd pul verilməli idi. Bu layihə qanuni qüvvəsini alsa və həyata keçsə, bizim itkimiz çox olacaq. Kəndlilərə veriləcək torpaqlar bizim ehtiyacsız yaşayışımızı təmin edirdi.

Hal-hazırda biz, bizə veriləcək sərmayədən düzgün istifadə edib, dəyəcək zərəri qismən də olsa qarşılamaq fikrindəyik.

Buna görə Siz həzrətlərinə aşağıdakı xahiş ilə müraciət edirik: İrəvan quberniyasının Naxçıvan qəzasında Naxçıvan meşəbəyliyinə aid olan "Qaraçuq" xəzinə bağı var. Bu bağın sahəsi 3713 desyatin 1360 kv sajendir, bunlardan 171 desyatin 550 kv. sajen yol və Araz çayıdır, qalan 3542 desyatin 810 kv.sajen xəzinəyə ümumi hesabla 1425 rubl gəlir gətirən sahələrə bölünür. Həmin sahənin cüzi miqdarda gəlir gətirməsi onunla izah olunur ki, sahə tamamilə susuzdur və ilin bu fəslində ondan yalnız otlaq kimi istifadə olunur, halbuki suvarılsa, iqlim və torpaq şəraitinə görə burada buğda, arpa və digər taxıl bitkiləri əkmək olar. Burada həmçinin pambıq, küncüt sahələri, üzüm, meyvə və tut bağları salına bilər. Bu ərazinin suvarılmasını Arazdan texniki qurğular və kanallar vasitəsi ilə "Qaraçuq" torpağı ilə qonşu olan Cəfərqulu xan Naxçıvanskiyə məxsus olan Xok kəndinin torpağından suyu keçirtməklə təmin etmək olar və suvarma üçün yazda 60 batman, yayda isə 40 batman su lazımdır.

Çoxsaylı nümunələrdən hökumətimizin bu cür tədbirlərə müsbət münasibət bəslədiyini və onların həyata keçirilməsində hər cür köməkliyi əsirgəmədiyini bilərək, Sizdən "Qaraçuq" torpağının aşağıdakı şərtlərlə bizə uzunmüddətli icarəyə verilməsini xahiş edirik: 1) İcarə müddəti 65 ildir və bu 65 ilin ilk on ilində indiki icarə qiymətini, yəni ildə 1425 rubl ödəyəcəyik, qalan hər 10 ildə icarə haqqı ötən ilin icarə haqqından 20 faiz artıq olacaq.

2) İcarə olunan torpağın süni suvarılması üçün texniki qurğulara çəkilən xərcləri öz üzərimizə götürməklə Xok kəndi ərazisindən keçməklə Araz çayından su çəkəcəyik.

3) İcarə müddəti başa çatdıqdan sonra bütün suvarma qurğuları xəzinənin mülkiyyətinə keçəcək.

Ümidvarıq ki, bu işdə yalnız bizim şəxsi xeyrimizi yox, həmçinin ictimai xeyri də nəzərə alaraq təklifimizə müsbət cavab verəcəksiniz.

27 yanvar 1912-ci il.

Qaraçuq bağının planı əlavə olunur.

İmzaladılar: Çarın yavəri general-mayor Hüseyn xan Naxçıvanski və istefada olan rotmistr Cəfərqulu xan Naxçıvanski" [9, v.17-18].

1912-ci il fevralın 21-də 1561 №-li məktubla Qafqaz canişinliyi Əkinçilik və Torpaq quruculuğu üzrə idarəsinin müvəkkili sözügedən xahişnamədə göstərilən məsələ haqqında münasib qərar qəbul etmək üçün həmin məktubun surətini İrəvan quberniyasının və Qars vilayətinin əkinçilik və dövlət əmlakı idarəsinə göndərmişdir: "Çarın yavəri olan general-mayor Hüseyn xan və qardaşı rotmistr Cəfərqulu xan Naxçıvanskilərin Naxçıvan qəzasında yerləşən "Qaraçuq" dövlət bağının onlara uzunmüddətli icarəyə verilməsi barəsində 27 yanvar 1912-ci il tarixli xahişnaməsinin surətini təqdim edərək qısa müddətdə bu məsələni həll etmənizi xahiş edirəm. Müvəkkil: (imza)" [9, v.1,3-6].

Xahişnamə 1912-ci il martın 5-də İrəvan-Qars Əkinçilik və dövlət əmlakı idarəsinin baş nəzarətçisi, 1912-ci il aprelin 6-da isə Naxçıvan Meşəçilik İdarəsinin meşəbəyisi tərəfindən nəzərdən keçirilmiş və İrəvan Əkinçilik və Dövlət Əmlakı İdarəsinə məruzə edilmişdir [3]. Məktubda deyilir: "Çar həzrətlərinin yavəri general-mayor Hüseyn xanın və qardaşı rotmistr Cəfərqulu xanın xahişnaməsinə dair idarənin 25 fevral 3054 saylı təklifini Naxçıvan Meşəçilik İdarəsinin meşəbəyisi cənab Arxipovla müzakirə edərək Sizə aşağıdakıları çatdırıram: "Xahişnamədə cənab xanlar əvvəla onu qeyd edirlər ki, ötən ilin sentyabr ayında Dövlət Dumasına təqdim olunmuş Cənubi Qafqaz diyarının 5 quberniyasında, o cümlədən onların bir neçə malikanələri olan İrəvan quberniyasında kəndlilərin mülkədarlardan asılılıq və müvəqqəti mükəlləfiyyət münasibətlərinin ləğv edilməsi barəsində çarın Qafqazdakı canişini tərəfindən qanun layihəsi təqdim olunub. Sonra qeyd olunur ki, əgər bu qanun layihəsi qəbul olunarsa və həyata keçirilərsə, onların xan evinin ehtiyacsız mövcudluğunu təmin edən əsaslar sarsılacaq. Buna görə də onlar itkini heç olmasa bir qədər ödəyəcək yollar axtarışındadırlar və buna görə də xəzinəyə müraciət edərək əkilməsi və Araz çayının suyundan suvarılmasına icazə verməklə 65 il müddətində 3700 desyatin sahəsi olan torpaq sahəsinin onlara verilməsini xahiş edirlər.

Həmin sahə meşəlikdən ibarətdir və "Qaraçuq" adlanır. Bu sahə Naxçıvan şəhərinin yaxınlığında yerləşir.

Xahişnaməni dərindən təhlil edərək, mən onda bir sıra ziddiyyətlər aşkar etdim. Əvvəla orada deyilir ki, həmin qanun qəbul olunsa, xanların ehtiyacsız mövcudluğunu təmin edən əsaslar sarsılacaq. Buna görə də onlara "Qaraçuq" torpağının icarəyə verilməsini xahiş edirlər. Xahişnamənin mahiyyəti

də elə bundan ibarətdir.

Hələlik bu, cənab canişinin Dövlət Dumasına təqdim etdiyi bir layihədir və bu layihə əvvəlcə Dumada, sonra isə Dövlət Şurasında uzun müddət müzakirə olunacaq. Bu layihənin qanun şəklində fəaliyyət göstərib - göstərməyəcəyini isə hələlik heçkim bilmir.

O ki, qaldı xanların icarə barəsində təklifi düşünülmüşdür. Bu məsələdə mənim üzərimə düşən vəzifə xanların şəxsi mənfəətlərini nəzərə almadan bu təşəbbüsün xəzinə üçün nə qədər yararlı olub-olmayacağını yoxlamaqdır. Buna görə də Siz həzrətlərə çatdırıram ki, bu təşəbbüs yalnız xanlara xeyir gətirəcək, xəzinəyə isə xeyri olmayacaq. Bunları demək üçün əlimdə əsaslarım var və bu əsasları mən 15 dekabr 1904-cü il və 4 fevral 1905-ci il tarixli 13 saylı məruzələrimdə bildirmişəm və bunlara artıq heç nə əlavə edə bilmərəm.

Buna görə xahiş edirəm məruzələrlə dərindən tanış olasınız, məni və meşəbəyi cənab Arxipovu bu məsələnin müzakirəsindən azad edəsiniz.

Arxipovun bu məsələdə rolu ondan ibarət olub ki, o mənə həmin torpağın dəqiq sahəsini bildirib, məruzələri isə işə şəxsən mən hazırlamışam. Baş nəzarətçi: (imza)" [9, v. 1,3-6].

Çarın yaveri general-mayor Hüseyn xan və qardaşı istefada olan rotmistr Cəfərqulu xan Naxçıvanskilərin xəzinənin ixtiyarında olan "Qaraçuq" torpağının onlara uzunmüddətli icarəyə verilməsi haqqında xahişnaməsinə cavab olaraq İrəvan-Qars Dövlət əmlakı Idarəsinin baş nəzarətçisinin yazdığı bu cavab məktubu çar Rusiyasının yerlərdəki idarəçiliyinin yerli müsəlman əhalisinə qarşı nə qədər qəddar və ögey münasibətinin və onlara qarşı sərt qaydaların tətbiq edildiyinin əyani sübutudur. Öz torpağımızda yad ünsürlü qüvvələrin ağalığı nəticəsində əkib-becərməyi belə əcnəbi məmurlardan icazə almağımız nə qədər də acı verici bir faktdır. Lakin qeyd etmək lazımdır ki, bu təzyiqlərə rəğmən istər yuxarıda məktub yazan şəxslər, istərsə də Kəngərlilər sülaləsinə mənsub Naxçıvanskilərin digər nümayəndələri hərbi sahədə olduğu kimi dövlətin ictimai-siyasi sahəsində də bir sıra mühüm işlər görmüş, Naxçıvan, Ordubad, Şərur-Dərələyəz qəzalarında kənd təsərrüfatı və sənayenin ayrı-ayrı sahələrinin yaradılmasında xidmətləri olmuşdur. Azərbaycanlılara məxsus torpaqların erməni, rus və qeyri millətlərdən olan əhalinin sahiblənməməsi üçün qanuni yollarla çox çətinliklə də olsa əldə etdikləri torpaqlarda hamam, məscid, mədrəsə, su kanalları, ticarət köşkləri, karvansaralar tikdirən Naxçıvanskilər maarif sahəsinə də böyük diqqət göstərək hələ o dövrdə kəndli balalarının təhsil alması üçün qız məktəblərinin açılmasına nail olmuşdular.

İrəvan quberniyası Naxçıvan Meşəbəyliyinin meşəbəyisi isə 1912-ci il aprel 6-da İrəvan əkinçilik və dövlət əmlakı idarəsinə ünvanladığı 388 №-li cavab məktubunda isə deyilir: "Çarın yaveri general-mayor Hüseyn xan və qardaşı istefada olan rotmistr Cəfərqulu xan Naxçıvanskilərin xəzinənin ixtiyarında olan "Qaraçuq" torpağının onlara uzunmüddətli icarəyə verilməsi haqqında xahişnaməsinə dair 25 fevral 3053 saylı məktubuna cavab olaraq aşağıdakıları çatdırıram.

"Qaraçuq" və ya "Böyükdüz" torpağı mənə həvalə edilmiş Naxçıvan meşəbəyliyinin Araz dövlət sahəsində yerləşir. Bu sahə Naxçıvan şəhərindən 8 verst cənubda Naxçıvan qəzasında Qaraçuq və Qıvraq kəndlərinin arasında yerləşir, şərqdən, cənubdan və qərbdən Araz çayı ilə, şimaldan isə köhnə yol ilə həmsərhəddir. Sahə xəzinəyə məxsusdur və onun sahəsi 3713 desyatin 1360 kv sajendir. Bunlardan 171 desyatin 550 kv sajen yol və çaydır, yararsız torpaqdır. Qalan 3542 desyatin 810 kv sajen isə düz, arabir təpələri olan, bitki aləmi kasad, yalnız Araz çayının kənarlarında qamış bitən ərazidir. Qışda və payızda bu ərazi otla örtülür və ondan otlaq kimi istifadə etmək olar. Buna görə də ərazi 5 yerə bölünərək otlaq kimi istifadə etmək üçün icarəyə verilir və az gəlir gətirir. Ötən 20 il ərzində: 1895-ci ildə sahədən xəzinənin ümumi gəliri 874 rubl 50 qəp., 1900-cü ildə - 814 rubl, 1905-ci ildə - 1157 rubl., ən yüksək gəlir isə 1910-cu ildə - 1426 rubl olmuşdur.

Ərazidən qərbdən şərqə doğru 13 verst uzunluğunda dəmiryolu keçir. Araz çayı boyunca İranla sərhəddə bir-birindən 7-8 verst aralıda 3 sərhəd məntəqəsi 27-ci sərhəd briqadası tərəfindən qorunur.

Naxçıvanskilər "Qaraçuq" torpağının onlara 65 illiyə icarəyə verilməsini xahiş edirlər və birinci on ildə indiki icarə qiymətini 1425 rubl, gələn hər on ildə bunun 50 faiz artığını ödəyəcəklərini öhdələrinə götürürlər.

Yekun olaraq icarədarlar xəzinəyə 65 ildə

- 1-ci onillikdə - ildə 1425 rubl, cəmi 14250 rubl.
- 2-ci onillikdə -ildə 2137 rubl 50 qəp., cəmi 21 375 rubl

- 3-cü onillikdə -ildə 3206 rubl 25 qəp., cəmi 32 062 rubl50qəp.
- 4-cü onillikdə - ildə 4809 rubl38 qəp., cəmi48 093 rubl 80 qəp.
- 5-ci onillikdə - ildə 7214 rubl 7 qəp., cəmi 72 140 rubl 70 qəp.
- 6-cı onillikdə - ildə 10 821 rubl 10 qəp., cəmi 108 211 rubl
- Son 5 ildə - ildə 16 231 rubl65 qəp., cəmi 81 158 rubl 25 qəp.

Cəmi: 377 291 rubl 25 qəp.

Deməli xəzinənin ildə 5 804 rubl 48 qəp. təmiz gəliri olacaq.

İcarə olunan torpağın suvarılması üçün Araz çayından Xok kəndinin ərazisinə su kanalı çəkməyə boyun olur və bununla əlaqədar bütün qurğuların alınması xərclərini öz üzərlərinə götürürlər. Bunun üçün də sözsüz küllü miqdarda vəsait lazımdır.

Araz çayından yazda 60 batman, yayda isə 40 batman su götürmək üçün lazım olan vəsaiti dəqiq hesablamaq mümkün deyil, lakin təxmini hesablamaq olar ki, bu iş üçün 100 000 rubl lazımdır. Kanal 20 verst uzunluğunda olmalıdır və divarları bəzi yerlərdə sementdən tökülməlidir.

Ümumiyyətlə, kanala çəkilən xərclər böyük olacaq və bu xərcləri icarədarlar öz üzərinə götürürlər. İndi isə Naxçıvan Vergi müfəttişliyindən aldığım rəsmi məlumatlara əsaslanaraq Naxçıvanskilərin torpağın icarəsindən 65 il ərzində əldə edəcəkləri gəliri hesablayaq.

Sahəsi 3542 desyatin 810 kv. sajen olan ərazidən suvarılması mümkün olan 1000 desyatindir. Qalan sahə 2542 desyatin 810 kv.sajen isə mal-qara üçün otlaq sahəsi kimi yararlıdır. Birinci dərəcəli əkin tarlasının gəliri hər desyatinə 27 rubl olduğundan, ümumi gəlir 27 000 rubl olacaq. Qalan 2542 desyatin 810 kv. sajen torpağın hər desyatinə 40 qəpik gəliri olmaqla ümumi gəliri 1016 rubl 92 qəpikdir. Beləliklə, ümumi illik gəlir 28016 rubl 92 qəpikdir, 65 ildə isə 1 721 099 rubl 80 qəpikdir.

Nəzərə alsaq ki, 1) İcarədarlar xəzinəyə ildə orta hesabla 5 804 rubl 48 qəp. ödəməyi öhdələrinə götürürlər; 2) Araz çayından suyun çəkilməsinə dair bütün xərcləri və icarə müddətində avadanlıqların saz vəziyyətdə saxlanmasını öz üzərlərinə götürürlər; 3) İcarə müddəti başa çatdıqdan sonra bütün avadanlıqları və təsərrüfat tikililərini xəzinənin ixtiyarına verməyə boyun olurlar; 4) Ümumi gəlirin hesablanması zamanı təbii fəlakətlər, məs., çəyirtkənin vurduğu ziyan və ya dolu nəzərə alınmayıb, onda müəyyən etmək olar ki, icarədarların bu əziyyətli işi müqabilində əldə edəcəkləri gəlir o qədər də böyük deyil.

Bu işin ictimai xeyrini də yəni quraqlıq ərazinin yaşıllığa çevriləcəyini, orada pambıq, buğda və digər bitkilər əkiləcəyini nəzərə alsaq mən hesab edirəm ki, xanların icarə şərtləri xəzinə üçün sərfəlidir. Əlbəttə ki, əgər xəzinə idarəsi öz vəsaiti hesabına həmin əraziyə su çəkmək fikrində deyilsə.

Xanların xahişnaməsinin surətini və Naxçıvan qəzası üzrə kəndlərin illik gəlir siyahılarından çıxarışı geri qaytarıram. Naxçıvan meşəbəyi Arxipov [9, v.13-16].

Məsələ ilə əlaqədar olaraq Qafqazdakı 2-ci su dairəsinin mühəndis-hidravliki də sözü gedən Qaraçuq ərazisinə baxış keçirmiş və ərazinin suvarılması ilə bağlı aşağıda göstərdiyimiz vəsiqəni vermişdir: "Qafqazdakı 2-ci su dairəsinin mühəndis-hidravlikinin 7 may 1912-ci il tarixli 497 saylı vəsiqəsi. Verilir çarın yaveri general-mayor Hüseyn xan Naxçıvanskiyə və istefada olan rotmistr Cəfərqulu xan Naxçıvanskiyə ondan ötəri ki, Qaraçuq dövlət torpağında və İrəvan quberniyasının Naxçıvan qəzası Araz çayında apardığım tədqiqatlardan belə bir nəticə çıxdı: bu ərazidə torpağın səviyyəsi Araz çayından 11 sajen yüksəkdir, Araz çayının meyli isə bu rayonda cüzi, yəni orta hesabla 0,20 sajendir. Yəni həmin ərazini suvarmaq üçün suyu kanal vasitəsi ilə aparmaq kifayət etməz. Beləliklə, suyun öz axınına ərazini suvarmaq mümkün deyil, onu yalnız süni qurğular tikib, motorların köməyi ilə suvarmaq olar.

Təsdiq edirəm: Qafqazdakı 2-ci su sahəsinin mühəndis-hidravliki vəzifəsini müvəqqəti icra edən (İmza) A.Manuçarov. Əsli ilə düzdür. Kargüzar" [9, v.25].

Edilən məruzələr əsasında müəyyən bir qənaətə gəlməyən İrəvan-Qars əkinçilik və dövlət əmlakı idarəsinin III rayonunun baş nəzarətçisi Y.Xarkeviç 1912-ci il mayın 10-da 139№-li məktubu ilə İrəvan quberniyasının Əkinçilik və dövlət əmlakı idarəsinin rəisinə xahişnamədə adı keçən torpağın Naxçıvanskilər nəslinin nümayəndələri Hüseyn xan və Cəfərqulu xana uzun müddətli icarəyə verilməsinin düzgün olmayacağını qeyd edərək dövlət üçün bu torpaqların daha sərfəli ola biləcəyi fikrini söyləmiş və bu bunu əsaslandıran faktlar irəli sürmüşdür: "Naxçıvan şəhəri. Mən 1912-ci il 6 aprel tarixli 115 saylı raportumda "Qaraçuq" torpağının uzunmüddətli icarəyə verilməsinin mümkünsüzlüyü haqqında

məsələyə dair fikir bildirmişəm. Onu xəzinənin öz ehtiyacları və ya dövlətin ehtiyacları üçün qorumaq lazımdır. Bu məsələ haqqında qısa olaraq aşağıdakıları bildirmək istəyirəm. Son illərdə həmin torpağı icarəyə götürmək istəyən şəxslərin uzun bir siyahısı qeydə alınmışdı. Məsələn, 1904-cü ildə saray müşaviri işləmiş Məlik Eynətov, general-mayor Hüseyn xan və onun qardaşı, istefada olan rotmistr Cəfərqulu xan Naxçıvanski də bu siyahıya daxildir. Lakin onların hər ikisi möhtəkirlik edərək cüzi pul xərcləməklə varlanmaq istəyirlər. Gün kimi aydındır ki, onların təklif etdiyi şərtlər xəzinə üçün yox, onların özləri üçün sərfəlidir. Dediklərimin sübutu olaraq isə mən Məlik Eynətovun xahişnaməsinə dair göndərdiyi 4 fevral 1905-ci il, 73 saylı raportunu göstərirəm. Bu iki təklif arasında fərq ondan ibarətdir ki, birincinin istəkləri daha məkrlidir, ikincinin isə nisbətən ağlabatandır. Lakin yenə də asan yolla varlanmaq həvəsi var. İcarə məsələlərini bir kənara qoyaraq, mən həmin torpağın nəyə görə gələcəkdə xəzinə üçün və dövlət məqsədləri üçün yararlı ola biləcəyi fikrini açıqlamaq istəyirəm. Məsələ burasındadır ki, hökumətimiz çoxdan bəri Cənubi Qafqaz və ya Sibir torpaqlarında rus koloniyalarını yerləşdirməkdə çətinlik çəkir. Burada, Cənubi Qafqazda yüz minlərlə belə torpaqlar var. Məsələn, Mil, Muğan çölləri və başqaları: onlar suvarılarsa bu məqsədlər üçün istifadə oluna bilər. Neçə illərdir ki, Muğanda minlərlə desyatin torpağa su çəkilib və bir neçə böyük rus kəndi salınıb. Hökumətimiz bu işə pul əsirgəmir və Allah qoysa, yaxın gələcəkdə bütün Muğanda Rusiyadan gəlmiş pravoslav xaçpərəstlər məskunlaşacaqlar.

"Qaraçuq" torpağı öz məhsuldarlığı, iqlim və coğrafi şəraitinə görə ucsuz-bucaqsız Muğan səhrasından daha əlverişlidir. Buxar mühərrikli nasosların köməyi ilə Arazdan çəkilən su xətti vasitəsilə həmin ərazinin hamısını suvarmaq olar. Onda bu torpaq insan üçün lazım olan bütün bitkiləri: bostan, taxıl, bağ, meşə, meyvə və s. əkmək üçün əlverişli olar. Beləliklə, su olsa "Qaraçuq" torpağı ən azı 120 evdən ibarət rus koloniyasının məskunlaşması üçün çox əlverişlidir. Xəzinə yaşayış torpaqlarının baş nəzarətçisi olaraq mən uzun illərdir ki, Şərur-Dərələyəz və Naxçıvan qəzalarında yaşayıram. Təbiidir ki, mən yerli əhalinin məişəti, həyat tərzi və mənəviyyatı ilə yaxından tanışam və qətiyyətlə deyə bilərəm ki, burada mütəşəkkil rus xalqının olması zəruridir. Hətta bizim mədəniyyətsiz rus kəndlimiz belə burada mədəniyyət təbliğatçısı ola bilər; xüsusən də, indiyədək dini fanatizmi və ətalət içində olan müsəlman kəndliləri arasında. Dediklərimə əsaslanaraq mən belə fikirləşirəm ki, xəzinə dərhal "Qaraçuq" sahəsinə su çəkdirib orada rus koloniyası yaratmalıdır. Bununla da o həm yerli əhaliyə xeyir verər, həm də özü böyük gəlir əldə edər, yəni 100 000 rubl artıq pula qənaət edər.

Səhv etmirəmsə, Muğanda 1 desyatin torpağın suvarılması xəzinəyə 40 rubla başa gəlir, "Qaraçuq"da isə bundan ucuz başa gələcək. İndi Qaraçuq torpağı ildə 1425 rubl. gəlir gətirir, əgər torpaq suvarılsa onda birinci dərəcəli torpağa çevriləcək. Belə torpaqdan isə 1 desyatinə 6 rubl. vergi alınır - yəni 3530 desyatinə cəmi 21375 rubl, bu o deməkdir ki, torpağın gəlirliliyi 15 dəfə artacaqdır.

Burada rus koloniyasının yerləşdirilməsinin başqa xeyirləri də ola bilər. Məsələn, qoşunların hərəkəti zamanı.

Strateji məqsədlər üçün Uluxanlı – Culfa dəmiryolu, Culfa yaxınlığında Araz çayı üzərində körpü tikilib, oradan Təbrizə isə şose yolu çəkilib. Təbrizdən Xoya isə torpaq yolu var. Hərbi ehtiyaclar üçün Naxçıvan vağzalının yanında kazarma, Naxçıvan yaxınlığında böyük tövlələr, kazak alayı zabitlərinə evlər tikilib. Belə söz gəzir ki, ətraflarda digər qoşun hissələri də yerləşəcək.

Aydındır ki, bu şəraitdə burada rus koloniyasının yaradılması nə qədər əhəmiyyətlidir. Baş nəzarətçi: Y.Xarkeviç" [9, v.26-29].

Çarın yaveri general-mayor Hüseyn xan və qardaşı istefada olan rotmistr Cəfərqulu xan Naxçıvanskilərin Əkinçilik və torpaq üzrə rəis ştabs kapitan Krivoşienə yazdıqları xahişnaməyə baxılaraq İrəvan quberniyasının Qars vilayəti və Dövlət əmlakı idarəsindən, İrəvan əkinçilik və Dövlət əkinçilik idarəsindən, İrəvan quberniyası Naxçıvan Meşəbəyliyinin meşəbəyisindən və İrəvan-Qars dövlət əmlakı idarəsinin III rayonunun baş nəzarətçisi tərəfindən yazılan izahatlar qənaətbəxş olmadı və sonda öz dədə-baba torpaqlarımızda əkib-becərmək üçün yadellilərdən icazə istənilsə də buna şərait yaradılmadı. Məsələ ilə əlaqədar yazılan bütün izahatlar hakimiyyət orqanları və rus məmurlarının nəinki Naxçıvanskilər nəslinə qarşı bir kin və qəzəbi, hətta yerli müsəlman əhalisinə qarşı həqarəti əks etdirir və bir daha tarixi düşmənlərimizin iç üzünü açıb göstərir.

Yazılan bu xahişnamələrdən başqa Naxçıvan MR Dövlət Arxivində Naxçıvanskilər soyadının nümayəndələri general Hüseyn xan Naxçıvanskinin və eləcə də onun qardaşları Cəfərqulu xan və

Rəhim xanın imzaları ilə İrəvan quberniyasının bir çox kəndlərindən torpaq sahələrinin alınması ilə əlaqədar aktlar, onların notarial qaydada sənədləşməsi ilə bağlı materiallar qorunub saxlanılır [8, v.1,2].

Hüseyn xan 1915-ci ildə ictimai fəaliyyətini Azərbaycanda davam etdirməyə çalışsa da, bu niyyətləri boşa çıxmışdır [10].

Nəticə. Beləliklə, yuxarıda təqdim olunan materiallar General Hüseyn xan Naxçıvanskinin doğma yurdu Naxçıvanda həyata keçirdiyi çoxşaxəli və çoxistiqamətli ictimai fəaliyyətini bir daha təsdiqləyir. Öz dövrünün və mənsub olduğu nəslin parlaq təmsilçisi olan Xan Naxçıvanski istedadlı sərkərdə olmaqla yanaşı, eyni zamanda bacarıqlı iş adamı, mərhəmətli vətəndaş, təəssübkeş qardaş və doğma yurda bağlı sadiq bir həmyerli idi.

ƏDƏBİYYAT

1. Bağırov İ. Kəngərli yurdunun generalları. Bakı: Yazıçı, 1994. – 56 s.
2. Cəfəroğlu İ. Kəngərli yurdunun generalları. // "Azərbaycan" qəzeti, 10 yanvar 1995-ci il, №6 (1023).
3. Cəfərov F., Quliyev M. General Hüseyn xan Naxçıvanski. // "Bizim əsr" qəzeti, 12 yanvar 2003-cü il, № 09 (725).
4. Cəfərov F., Quliyev M. General Hüseyn xan Naxçıvanski. // "Bizim əsr" qəzeti, 19 yanvar 2003-cü il, № 15(731).
5. İvanov. R. Əlahəzrətin general-adyutantı. Naxçıvan: "Əcəmi", 2008. - 367s.
6. Quliyev M. Naxçıvanskilər qürbətdə // 525-ci qəzet, 25 aprel 2009-cu il, № 73 (2906).
7. Quliyev M. General Hüseyn xan Naxçıvanski və onun varisləri // "Şərq qapısı", 10 noyabr 2006-cı il, № 207 (18.132).
8. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi, f.9 m., siy. 1, iş 38\39.
9. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi, f.27m., siy. 1, iş 422.
10. Rəhimoğlu M. Zəfər və faciə // "525-ci" qəzet, 1 dekabr 2011-ci il, s.7.
11. В Петербурге состоялось открытие закладного камня памятника генералу Гусейн Хану Нахичеванскому // Каспій, 25 октября 2016, с.10.
12. Гулиев Муса. Ответственная миссия. // Каспій, 21 августа 2016, с.11.
13. За что казнили единственного русского генерала мусульманина: Азербайджанец Гусейн Хан Нахичеванский. // https://kulturologia.ru/blogs/220721/50524/ [10.06.2025].

ГЮЛЬШАН ГУСЕЙНОВА
Министерство обороны Азербайджанской Республики
Заведующий отделом Военно-исторического музея, д.ф.и.и.

НАХЧЫВАНСКИЙ ПЕРИОД ОБЩЕСТВЕННОЙ ДЕЯТЕЛЬНОСТИ ГЕНЕРАЛА ГУСЕЙН ХАНА НАХЧЫВАНСКОГО

В статье на основе достоверных источников и научной литературы всесторонне отражена деятельность генерала полной кавалерии Гусейн хана Нахчыванского в общественно-политической жизни его родного Нахчывана. Хотя Гусейн хан, большую часть жизни проживший и работавший вдали от родины, был напрямую связан с Россией, он никогда не разрывал связей с Азербайджаном, особенно с Нахчываном, являющимся его неотъемлемой частью, и проводил важную общественную работу на этой земле. Несмотря на многолетнюю службу в императорской армии, Гусейн хан постоянно поддерживал связь со своими родственниками, проживающими на его исконной родине в Нахчыване, оказывал материальную помощь братьям с целью предотвращения захвата армянами земель Нахчывана и Иревана, а также предпринимал серьезные инициативы по возвращению и приобретению этих земель.

Ключевые слова: Нахчыван, Нахчыванские, Гусейн-хан Нахчыванский, общественная деятельность, земля Гарачуг, русские колонии.

GULSHAN HUSEYNOVA
Ministry of Defense of the Republic of Azerbaijan
Head of Department of the Military History Museum, d.h.s.

NAKHCHIVAN PERIOD OF PUBLIC ACTIVITYOF THE GENERAL HUSEYN KHAN NAKHCHIVANSKY

The article, based on reliable sources and scientific literature, comprehensively reflects the activities of general Huseyn Khan Nakhchivansky in the socio-political life of his native Nakhchivan. Although Huseyn Khan, who lived and worked most of his life away from his homeland, was directly connected with Russia, he never broke ties with Azerbaijan, especially with Nakhchivan, which is an integral part of it, and carried out important public work on this land. Despite his many years of service in the imperial army, Huseyn khan constantly maintained contact with his relatives living in his original homeland in Nakhchivan, provided financial assistance to his brothers in order to prevent the seizure of the lands of Nakhchivan and Yerevan by the Armenians, and also took serious initiatives to return and acquire these lands.

Keywords: Nakhchivan, Nakhchivanskis, Huseyn Khan Nakhchivanski, public activity, Garachug land, Russian colonies.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 iyun 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 30 noyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Hacı Həsənov, t.e.d. İbrahim Zeynalov.